# Demokratiya mədəniyyəti kompetensiyaları

Sənəd 2016-cı ilin aprel ayında Avropa Mədəniyyət Konvensiyasına üzv ölkələrin təhsil nazirlərinin toplantısında qəbul edilmişdir.

Sənəddə 4 istiqamət üzrə (Dəyərlər, Yanaşmalar, Bacarıqlar, Bilik və tənqidi anlama) 20 kompetensiya təqdim edilir.

## Dəyərlər

**İnsan ləyaqəti və insan hüquqlarına dəyər vermək**

Bu dəyər hər bir insanın bərabər dəyər, ləyaqət və hörmətə layiq olması, eləcə də eyni insan hüquqları və fundamental azadlıq hüquqlarına malik olması və bunlara uyğun münasibət görməsinin vacibliyi ideyası əsasında formalaşmışdır.

**Mədəni müxtəlifliyi dəyərləndirmək**

Bu dəyər digər mədəni mənsubiyyət, mədəni müxtəliflik və çeşidliliyin, eləcə də digərlərinin baxış, fikir və təcrübələrinin çoxnövlülüyünə müsbət hal kimi baxmağın, onları dəyərləndirməyin və qorumağın vacibliyi inancına əsaslanır.

**Demokratiya, ədalət, düzgünlük, bərabərlik və qanunun aliliyini dəyərləndirmək**

Bu dəyərlər toplusu cəmiyyətin ədalət, düzgünlük, bərabərlik və hüququn aliliyi prinsiplərinə hörmət edən demokratik proseslərlə nizamlanmalı və idarəedilməli olduğu inancına əsaslanmışdır.

## Yanaşmalar

**Mədəni fərqliliyə, digərlərinin inanclarına, dünya görüşlərinə və normalarına açıqlıq**

Açıqlıq – şəxsin özününkündən fərqli mədəni mənsubiyyətə, əqidəyə, dünya görüşünə və normalara malik insanlara münasibətdə sərgilədiyi davranışa deyilir. Bu yanaşma tərzinə digərlərinin dünya görüşlərinə münasibətdə həssaslıq, səmimi maraq hissi və öyrənmə istəyi daxildir.

**Hörmət**

Hörmət kiminsə və ya nəyinsə təbii önəmi, dəyəri və ya qiyməti olduğu fikrinə əsaslanaraq, onlara göstərilən müsbət münasibət və ehtiramdan ibarətdir. Birindən fərqli mədəni mənsubiyyətə və ya fərqli inanc, düşüncə və normalara malik insanlara hörmət etmək, səmərəli mədəniyyətlərarası dialoq və demokratiya mədəniyyəti üçün böyük əhəmiyyətə malikdir.

**Vətəndaş təfəkkürü**

Vətəndaş təfəkkürü fərdin ailəsi və dostlarından daha geniş çevrə - mənsub olduğu icma və ya sosial qrupa olan münasibətidir. Bu, həmin cəmiyyətə mənsubluq hissi, cəmiyyətin digər üzvlərini nəzərə almaq, öz davranışlarının həmin üzvlərə təsiri barədə düşünmək, cəmiyyətin digər üzvləri ilə həmrəylik və yaşadığı icmaya münasibətində vətəndaş məsuliyyəti kimi özünü göstərir

**Məsuliyyət**

Məsuliyyət fərdin öz hərəkətlərinə olan münasibətidir. Bu münasibətə fərdin öz hərəkətləri barədə refleksiv olması (düşünməsi), mənəvi cəhətdən qəbul olunan formada davranmaq niyyətini formalaşdırması, şüurlu davranması və etdiyi hərəkətlərin nəticələrinə görə məsuliyyət daşıması daxildir.

**Şəxsi səmərəlilik**

Şəxsi səmərəlilik şəxsin özünə olan münasibətidir. Bu, şəxsin müəyyən məqsədlərə çatması üçün lazımi addımları ata biləcəyinə, ortaya çıxan məsələlərdən baş çıxaracağına əminlik, eləcə də tapşırıqların öhdəsindən gəlmək üçün uyğun metodları seçəcəyinə, maneələri uğurla keçəcəyinə və dünyada fərq yaradacağına dair müsbət inamdır.

**Qeyri-müəyyənliyə dözümlülük**

Qeyri-müəyyənliyə dözümlülük çoxsaylı ziddiyyətli interpretasiyalara zəmin olan qeyrimüəyyən situasiyalara münasibətdir. Bu bacarıq belə situasiyaları müsbət qiymətləndirmək və onların öhdəsindən konstruktiv şəkildə gəlməkdən ibarətdir.

# Bacarıqlar

## Müstəqil öyrənmə bacarıqları

Müstəqil öyrənmə bacarıqları şəxsin öz ehtiyaclarına uyğun, fərdi şəkildə, digərləri tərəfindən təhrik edilmədən, öz öyrənmə prosesini müəyyənləşdirmək, təşkil etmək və qiymətləndirmək bacarıqlarıdır.

## Analitik və tənqidi düşünmə bacarıqları

Analitik və tənqidi düşünmə bacarıqları təhlil etmək, qiymətləndirmək, və hər növ material (mətnlər, arqumentlər, şərhlər, problemlər, hadisələr, təcrübələr) barədə sistematik və məntiqi tərzdə mühakimə yürütmək bacarığıdır.

## Dinləmə və müşahidə etmək bacarıqları

Dinləmə və müşahidə bacarıqları deyiləni və deyilənin hansı formada deyildiyini, eləcə də digər insanların qeyri-verbal davranışlarını anlamaq və sezmək bacarıqlarıdır.

## Empatiya bacarığı

Empatiya bacarığı digər insanların fikir, inanc və hisslərini anlamaq, onlarla əlaqə yarada bilmək və dünyanı digərlərinin nöqteyi-nəzərindən görə bilmək üçün lazım olan bacarıqlar toplusudur.

## Çeviklik və uyğunlaşma bacarığı

Çeviklik və uyğunlaşma bacarıqları yeni kontekst və situasiyalara səmərəli cavab verə bilmək üçün fərdin fikir, hiss və davranışlarını uyğunlaşdırmaq və tənzimləmək bacarıqlarıdır.

## Linqvistik, kommunikativ və plurilinqual (çoxdillilik) bacarıqlar

Linqvistik, kommunikativ və plurilinqual (çoxdillilik) bacarıqlar özü ilə eyni və ya fərqli dildə danışan insanlarla səmərəli və müvafiq ünsiyyətə girmək, müxtəlif dil daşıyıcıları arasında vasitəçi ola bilmək üçün zəruri bacarıqlardır.

**Əməkdaşlıq bacarıqları**

Əməkdaşlıq bacarıqları digərləri ilə ümumi fəaliyyətlərdə, tapşırıqlarda və riskli məsələlərdə uğurla iştirak etmək və qrup məqsədlərinə nail olmaq üçün digərlərini həvəsləndirə bilmək üçün lazım olan bacarıqlardır.

**Münaqişələri həll etmə bacarıqları**

Münaqişələri həll etmə bacarıqları yaranan münaqişəni hər iki tərəfin qəbul edəcəyi optimal həll yoluna gətirmək üçün münaqişələrə yanaşmaq, onları idarə etmək və sülh yolu ilə,həll etmək üçün lazımi bacarıqlardır.

## Bilik və tənqidi anlama

**Tənqidi özünü anlama**

Bura insanın öz fikirləri, inancı, hissləri və motivasiyası, həm də öz mədəni mənsubiyyəti və dünyaya baxışını dərindən tanıması və özü barədə biliklərə malik olması daxildir.

**Dil və ünsiyyət haqqında biliklər və tənqidi anlama**

Bu bacarıqlar fərdin danışdığı dildə cəmiyyətdə qəbul edilmiş verbal və qeyri-verbal dil normaları barədə, eləcə də ünsiyyətin müxtəlif tərzlərinin insanlara təsiri və hər bir dilin mədəni cəhətdən eyni mənaları unikal formada necə çatdırması barədə bilik və tənqidi anlamanı özündə ehtiva edir.

**Dünya barədə biliklər və dünyanı tənqidi anlama**

Bu bacarıq siyasət, hüquq, insan hüquqları, mədəniyyət, din, tarix, media, iqtisadiyyat, ətraf mühit və  dayanıqlılıq kimi müxtəlif sahələr barədə geniş və mürəkkəb biliklər toplusunu və tənqidi anlamanı ehtiva edir.

## Kompetensiyalar

**Dəyərlər**

- İnsan ləyaqəti və insan hüquqlarına dəyər vermək
- Mədəni müxtəlifliyi dəyərləndirmək
- Demokratiya, ədalət, düzgünlük, bərabərlik və qanunun aliliyini dəyərləndirmək

**Yanaşmalar**

- Mədəni fərqliliyə, digərlərinin inanclarına, dünya görüşlərinə və normalarına açıqlıq
- Hörmət
- Vətəndaş təfəkkürü
- Məsuliyyət
- Şəxsi səmərəlilik
- Qeyri-müəyyənliyə dözümlülük

**Bacarıqlar**

- Müstəqil öyrənmə bacarıqları
- Analitik və tənqidi düşünmə bacarıqları
- Dinləmə və müşahidə etmək bacarıqları
- Empatiya bacarığı
- Çeviklik və uyğunlaşma bacarığı
- Linqvistik, kommunikativ və plurilinqual( çoxdillilik) bacarıqlar
- Əməkdaşlıq bacarıqları
- Münaqişələri həll etmə bacarıqları

**Bilik və tənqidi anlama**

- Tənqidi özünü anlama
- Dil və ünsiyyət haqqında biliklər və tənqidi anlama
- Dünya barədə biliklər(siyasət, hüquq, insan hüquqları, mədəniyyət, din, tarix, media, iqtisadiyyat, ətraf mühit və s.) və dünyanı tənqidi anlama